# "Azərbaycan-Urdu beynəlxalq mədəniyyət və poeziya gecəsi"

Bakıda İnter Continental Otelin "Leyli və Məcnun" zalında "Urdu Daily Jadid Post" qəzetinin baş redaktoru, Qlobal Mədəniyyət Federasiyasının baş katibi və "Konfransların təşkili və tədbirlərin idarə edilməsi" təşkilatının icraçı direktoru, Dubayda yaşayan bloqqer Tariq Feyzinin və Azərbaycan Mədəniyyəti və Dili Mərkəzinin rəhbəri Kifayət Əhmədqızının təşkilatçılığı ilə Azərbaycanda ilk dəfə urdu və Azərbaycan şairlərinin iştirakı ilə "Azərbaycan-Urdu beynəlxalq mədəniyyət və poeziya gecəsi" keçirilib.



Gecədə Pakistan, Hindistan və Dubaydan olan urdu dilli şairlərlə yanaşı, azərbaycanlı şairlər də iştirak edib, şairlər həm urdu, həm də Azərbaycan dilində şeirlər səsləndiriblər. Pakistandan Babar Nasim Assi, Dr. Saima İram, Hammad Niyazi, Hindistandan Zübeyir Ansari, Dubaydan İrfan İzhar, Azərbaycandan isə Azadə Novruzova, Aysel Fikrət, Müşfiqə Baləddin və Əkbər Türbəndeyev iştirak edərək öz şeirlərini təqdim ediblər.



Tədbirdə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli, professor Qəzənfər Paşayev, Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, professor Bədirxan Əhmədov və Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin urdu dili müəllimi Eldost İbrahimov, Benilüks Azərbaycanlıları Konqresinin vitse prezidenti, Qərbi Azərbaycan İcmasının Niderlandda yaradılmış nümayəndəliyinin rəhbəri Sima xanım Cəfərli və mətbuat katibi Gülnarə xanım Əliyeva fəxri qonaq kimi iştirak ediblər.

Sonda sufi rəqsləri və urdu dilində mahnılar təqdim olunub.